

# Samux gözoxşayan, abad rayona çevrilib



> *Əminəm ki, Samux rayonunda gələcəkdə də işlər yaxşı gedəcək. Bu günə qədər sosial-iqtisadi layihələr icra edilmişdir. Mənə verilən məlumata görə, 30-dan çox məktəb tikilib, təmir edilmişdir.*
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

***❒ Ötən əsrin doxsanıncı illərinin əvvəllərində bu rayon bərbad vəziyyətdə idi.1992-ci ilin fevralınadək keçmiş Xanlar rayonunun (indiki Göygöl) tərkibində olan Samux ən ağır günlərini yaşayırdı. Bu sətirlərin də müəllifi vəziyyəti görüb "33 ildən sonra... və ya Xanlar rayonunun Samux bölgəsində nələr baş verir" sərlövhəli tənqidi-təhlili yazı hazırlamışdı. Yazıya görə həm mərhum baş redaktor, həm də müəllif dəfələrlə "yuxarılarda" izahat verməli olsalar da, Samux soveti Milli Şuranın 18 fevral 1992-ci il tarixli qərarı ilə müstəqil bir rayon kimi fəaliyyətə başladı. Lakin təzə rayonda vəziyyət bir qədər də gərginləşdi.***

Əvvəla, Xalq Cəbhəsinin Gəncədəki mitinqlərinə rəhbərlik edən Rasim Mürsəlovun Samux Rayon İcra Hakimiyyətinin başçısı təyin olunması nəinki yaxşılığa doğru nəyisə dəyişdirdi, əksinə, rayonda hərc-mərclik, vəzifə davası, quldurluq, özbaşınalıq baş alıb getdi...Yalnız 90-cı illərin ikinci yarısından başlayaraq, Samuxda vəziyyət nisbətən sabitləşməyə başladı. Lakin bu rayona olan laqeydliyin nəticələrini heç də qısa müddətdə aradan qaldırmaq mümkün olmadı. Təsəvvür edin ki, rayon mərkəzi seçilən Nəbiağalı qəsəbəsində bir dənə də olsun inzibati bina yox idi. Asfalt yoldan, səkidən, normal şəraiti olan məktəb, uşaq bağçası, xəstəxana binasından söhbət belə gedə bilməzdi...

Bayaqdan rayon icra hakimiyyətinin başçısı Alı Qocayevlə bu barədə söhbət edirəm. Samuxa qədər Bakının Binəqədi rayonuna rəhbərlik edib. Təcrübəli, yüksək təşkilatçılıq qabiliyyəti olan, insanlarla tez ünsiyyət qurmağı bacaran bir adamdır. Deyir ki, o illərdə Samuxda nə baş veribsə, bunun sadə adamlara heç bir dəxli yoxdur. Vəzifə üstündə ən çirkin əməllərdən belə çəkinməyənlərin isə taleyi məlumdur. Amma bir həqiqəti unutmaq olmaz ki, Samuxda hamı kimin kim olduğunu yaxşı bilir. Zəhmətkeş, həqiqəti üzə deyən, güleyləmməyi o qədər də sevməyən, özünə güvənən, yaxşılığı heç vaxt unutmayan adamlardı samuxlular:

– Bizim çox hörmətli, təcrübəli bir pedaqoqumuz var: Aidə Namazova. Cənab Prezident rayonumuzda olarkən 36 kilometrlik bir yolun açılışını etdikdən sonra Aidə xanım söz alıb bilirsiniz nə dedi? Dedi ki, 10-15 il bundan əvvəlki Samuxla indiki Samuxu müqayisə etmək mümkün deyil. Çünki inanılmaz dərəcədə dəyişiklik baş verib. 1990-cı illərdə rayon mərkəzi palçıqlı, çalaçuxur yollardan, bir neçə küçədən ibarət qəsəbə idi. 2008-ci ildə Sizin sərəncamınızla rayon mərkəzi şəhər statusu aldıqdan sonra burada böyük quruculuq-abadlıq işləri həyata keçirildi. Sizin yüksək diqqət və qayğınız sayəsində Samux böyüdü, abadlaşdı, parklar, xiyabanlar, yaşıllıqlar salındı, müasir tipli binalar tikildi. Əlbəttə, Sizin qayğınız sayəsində insanların həyat səviyyəsi yüksəldi. Siz qeyd etdiyiniz kimi, yeni iş yerləri açıldı, sosial obyektlər, məktəb binaları tikildi.



Alı müəllim ölkə Prezidenti İlham Əliyevin bu ilin avqustun 19-da Samuxa səfərini nəzərdə tuturdu. Qeyd edək ki, Qərb bölgəsində əhalisinin sayına görə Daşkəsəndən sonra ikinci kiçik rayon olan Samuxda həmin gün elə mühüm obyektlərin açılışı oldu ki, bəlkə də ən böyük rayonlar belə, sözün həqiqi mənasında, həsəd aparardı. Elə götürək rayondakı Aqroenerji yaşayış kompleksini.

Azərbaycanda ilk və yeganə, tayı-bərabəri olmayan bir layihədir. Alternativ və bərpa olunan enerji mənbələri hesabına hibrid tipli Günəş, külək, geotermal, enerji və bioenerji istehsalı stansiyasından, enerji təminatlı kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, satışı sahələrindən ibarət olan Samux Aqroenerji yaşayış kompleksi özündə yüksək texnologiyaları, müasir idarəetmə sistemlərini birləşdirir. Bu, həm də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizdə həyata keçirilən üçpilləli Enerji İnkişafı Modelinin tərkib hissələrindən biridir. Layihənin əsas məqsədi Samux rayonunun enerjiyə olan tələbatının tam yerli alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin edilməsi, bununla yanaşı, respublikamızın enerji və kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində iştirak və bu layihənin 10-12 il müddətinə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulur. Kompleksdə dövlət-özəl tərəfdaşlığı modeli çərçivəsində dövlət tərəfindən alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı sahələrinin yaradılması, alternativ və bərpa olunan enerji mənbələrinin yerli iqtisadiyyatın bütün sahələrinə tətbiqinin təmin edilməsi, yerli infrastrukturun inkişafında iştirak, özəl sektor tərəfindən isə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistika mərkəzinin və eləcə də burada fəaliyyət göstərən əməkdaşlar üçün müasir tipli yaşayış kompleksinin inşası planlaşdırılıb. Layihə hibrid tipli enerji stansiyasından, əkinçilik və bağçılıq sahələri, istixana, heyvandarlıq, quşçuluq, balıqçılıq kompleksləri, arı ailələrinin yetişdirilməsi mərkəzi, süd və ət kombinatları, yem zavodu, logistika mərkəzindən və yaşayış kompleksindən ibarətdir. Aqroenerji yaşayış kompleksi alternativ və bərpa olunan enerji mənbələri hesabına işləyən hibrid enerji stansiyasında il ərzində istehsal ediləcək 120 milyon kilovat-saatdan artıq elektrik və 100 min hekakalоridən çox istilik enerjisi rayonun enerjiyə tələbatını tam ödəməklə, ildə 60 milyon kubmetr təbii qaza qənaət olunmasına və atmosferə buraxılan karbon qazının həcminin 90 min ton azaldılmasına imkan verəcək. Bununla yanaşı, aqrokompleksin fəaliyyəti ildə on minlərlə ton meyvə-tərəvəz, süd və ət məhsullarının istehsalına, 2000-dən çox daimi iş yerinin açılmasına şərait yaradacaq. Hazırda Aqroenerji yaşayış kompleksində birinci mərhələ üzrə işlər başa çatdırılıb, dövlət hesabına günəş-bioenerji elektrik stansiyası, istilik stansiyası, yarımstansiya quraşdırılıb. Həmçinin rezidentlərin iştirakı hesabına Aqroenerji yaşayış kompleksinin üçmərtəbəli inzibati binası, heyvandarlıq kompleksi inşa edilib, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatları, maşın-mexanizm parkı yaradılıb. Bu layihə çərçivəsində Samux Aqroenerji yaşayış kompleksində "Azguntex" zavodunda hazırlanan meyvə quruducuları, soyuducu kameralar və səyyar rejimdə fəaliyyət göstərən Günəş işıqlanması ilə təmin olunmuş turist çadırları və əsaslı yol işıqlanma sistemləri tətbiq edilib.



Respublikamızda ilk dəfə Günəş texnologiyaları ilə təmin olunmuş enerji effektli üzüm-tərəvəz istixanası və şəhid A.Nəbiyev küçəsində qurulmuş Günəş enerjisi ilə çalışan işıq dirəkləri rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb. Gələcəkdə bu texnologiyaların digər bölgələrdə tətbiqi nəzərdə tutulub. Alternativ və bərpa olunan enerji mənbələrinin geniş tətbiqi istehlakçıların enerji ilə təchizatının təhlükəsizliyinin yüksəldilməsində, təbii qaza qənaət olunmasında, atmosferə atılan zərərli tullantıların azalmasında, ekoloji tarazlığın təmin olunması ilə innovativ inkişafın sürətlənməsində və yeni iş yerlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir.

Samux Aqroenerji yaşayış kompleksi 50 mindən çox əhalisi olan bölgənin hibrid stansiyalarda istehsal olunan enerji ilə müstəqil rejimdə enerji təchizatını təmin edən ilk eksperimental poliqondur, maraqlı, həm də qürurverici bir faktdır ki, bu təcrübənin digər rayonlarda və xarici ölkələrdə tətbiqi nəzərdə tutulur.

…Samuxda bir-birinin ardınca elə obyektlər tikilib istifadəyə verilir ki, istər xarici görünüşü, istərsə də təyinatından asılı olmayaraq, daxilində yaradılan şərait, zövqlü tərtibat diqqət çəkir, rayon sakinlərinin və qonaqların xoşuna gəlir. Onlar çoxdur. Rayonun mərkəzi küçəsi olan Heydər Əliyev prospekti boyu ucaldılıb. Əksəriyyəti də son illərin obyektləridir. Halbuki yuxarıda qeyd etdiyimiz kimi, 15-20 il qabaq bir dənə də olsun inzibati bina gözə dəymirdi. Samuxda çəkilən asfalt yollar bu rayonun həm Gəncə, həm də digər rayonlarla rahat gediş-gəlişini təmin edib. Elə avqust ayında təntənəli açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirak etdiyi Samux-Füzuli-Lək-Əlibayramlı-Qarabağlar-Çobanabdallı-Samux və Zazalı-"İmamzadə" avtomobil yolu deyilənlərə əyani sübutdur. 23 min nəfər əhalinin yaşadığı və 11 yaşayış məntəqəsini birləşdirərək yük və sərnişin daşımasını xeyli yaxşılaşdırmağa imkan verən bu yolun tikintisi ölkə başçısının 2014-cü ildə imzaladığı müvafiq sərəncama əsasən, həyata keçirilmişdir. Uzunluğu 36 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol inşa olunarkən onun üzərində müxtəlif diametrli suötürücü borular və 2 aşırımlı körpü tikilmiş və 16 yerdə avtobus dayanacağı quraşdırılmışdır. Yol nişanlarının qoyulması, üfiqi və şaquli nişanlama xətlərinin çəkilməsi, siqnal dirəklərinin qoyulması həyata keçirilmişdir. Yolun keçdiyi Samux şəhərində, Çobanabdallı, Qarabağlar və Əhmədbəyli kəndlərində yolboyu abadlıq işləri aparılmış, həmişəyaşıl ağaclar əkilmişdir. Eyni zamanda, Samux-Yenikənd yolunun kənarlarında təmizlik işləri aparılmışdır.



Məktəb, uşaq bağçaları, həkim məntəqələri, idman ocaqları, park və xiyabanlar da Samuxun görkəmini tamamilə dəyişdirmişdir. Maraqlıdır ki, bu rayona, onun rəhbərlərinə arxayınlaşmaq hissləri tamamilə yaddır. Bütün bunlar "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın rayon üzrə uğurla yerinə yetirilməsindən xəbər verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Samux şəhərində inşa edilmiş körpələr evi-uşaq bağçası da rayonun yeni, gözoxşayan sosial obyektlərindən biridir. Yadımdadır ki, Alı Qocayev az qala hər gün həmin obyektin tikintisinə baş çəkirdi, işin gedişi ilə maraqlanır, konkret kömək göstərirdi, tapşırıqlar verirdi. Nəticədə körpələrə gözəl bir hədiyyə verilib.

İkimərtəbəli, iki korpusa malik binanın ümumi sahəsi 1135 kvadratmetrdir. Müxtəlif yaş qruplarının fəaliyyəti göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, oyun zalında və yeməkxanada da yüksək şərait yaradılıb. Körpələr evi-uşaq bağçasının həyətlərində balacaların istirahəti üçün meydançalar salınıb, attraksionlar quraşdırılıb.

Rayon mərkəzində, qəsəbələrdə ikimərtəbəli yaşayış binaları əsaslı təmir olunur, dam örtükləri tamamilə yenidən qurulur, giriş qapıları dəyişdirilir, həyət-baca sahmana salınır, idman meydançaları yaradılır.

Rayon rəhbərliyi əhali ilə sıx əlaqə saxlamağa üstünlük verir. İcra hakimiyyətinin başçısı səyyar görüşlərin təşkilində elə bir sistem yaradıb ki, öyrənməyə, təbliğ etməyə dəyər. Dəqiq qrafik tutulub, əvvəlcədən həmin yaşayış məntəqəsinə xəbər göndərilir, qəsəbənin və ya kəndin görməli yerlərində elanlar vurulur və sair. Elə ona görə də bu görüşlər formalizmdən uzaqdır. Burada konkret problemlər həll olunur, perspektiv işlər müzakirə edilir. İşə belə yanaşmanın nəticəsidir ki, rayon icra hakimiyyəti başçısının icra hakimiyyətində keçirdiyi fərdi qəbullara gələnlərin sayı olduqca azdır. Halbuki A. Qocayevin Samuxda fəaliyyətinin ilk vaxtlarında qəbula 60, 80, bəzən də 100- dən çox adam gəlirdi.

Alı müəllim deyir ki, Samuxda hələ çox iş görüləcək. Arxayınlaşmağa ehtiyac yoxdur. Cari ildə şəhərin kanalizasiya və mərkəzləşmiş içməli su sisteminin qurulması işlərinə başlanması gözlənilir. Rayonun Sərkar və İnstitut qəsəbə tam orta məktəbləri üçün hər biri 650 şagird yerlik yeni məktəb binalarının, Qarayeri qəsəbə 2 saylı tam orta məktəbi üçün 200 şagird yerlik, Alıuşağı kənd tam orta məktəbi üçün isə 120 şagird yerlik əlavə korpusların tikintisi həyata keçiriləcək.

Eyni zamanda, ilin sonuna kimi şəhərin küçələrinin yenidən qurulması və kəndlərarası yolların əsaslı təmiri də əsas hədəflərdən biridir.

Qarşıda duran ən vacib məsələlərdən biri də rayon iqtisadiyyatının daha da genişləndirilməsi, xüsusilə kənd təsərrüfatının inkişaf etdirilməsinin sürətləndirilməsidir.

Əhalinin məşğulluğunun təmin olunması üçün yeni istehsal və emal müəssisələrinin yaradılması istiqamətində işlər görülür.

...Doxsanıncı illərin əvvəlindəki Samuxdan əsər-əlamət qalmayıb. İndi bu rayon abad, gözoxşayan bir məkandır. Adamları da dövlətə və dövlətçiliyə sədaqətlidirlər. Burada kimi dindirsən, deyəcək ki, Samux ölkə Prezidentinin diqqəti və qayğısı sayəsində belə füsunkar olub. Biz bunu heç vaxt unutmayacağıq.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***